# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**2022-ci il üçün ƏSAS qrant müsabiqəsinin**
**(AEF-MCG-2022-1(42)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 5-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynova Mahirə Nağı qızı**
Layihənin nömrəsi: **AEF-MCG-2022-1(42)-12/12/5-M-12**
Müqavilənin imzalanma tarixi: **10 aprel 2023-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2023-cü il - 01 may 2025-ci il**
*Layihənin **V mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | Layihənin bu mərhələsində icrası nəzərdə tutulan işlərin layihə üzvləri arasında bölgüsü aparıldı, layihənin məqsədi, qarşıya qoyulan məsələlər barədə ətraflı məlumat vermək məqsədilə tərəfdaş universitetlərlə onlayn görüşlər təşkil edildi. Təcrübə mübadiləsi üçün planlaşdırlan səfərin detalları barədə müzakirələr aparıldı, pedaqoji yönümlü ADPU-nun nəzdində fəaliyyət göstərən Pedaqoji kollecin tələbə və müəllimləri arasında yeni təlim texnologiyaları ilə bağlı sorğular aparıldı, mütəmadi olaraq beynəlxalq jurnallarda, elmi konfranslarda layihə mövzusu ilə bağlı məqalə və məruzələrlə çıxış edildi.<br>Əldə edilmiş təcrübi və nəzəri biliklərin, məlumatların filoloji istiqamətdə dərs deyən əməkdaşlara, müəllimlərə çatdırılması məqsədilə ADPU-nun regionlardakı şöbələrinin əməkdaşlarına məruzələrin edilməsi və təlimlərin, seminarların keçirilməsi təmin olunmuşdur. Lahihənin bu mərhələsində icrası nəzərdə tutulan işlərin layihə üzvləri arasında təkrar bölgüsünü aparmaq üçün dəyirmi masalar təşkil |

| | |
|---|---|
| | olunmuşdur. Layihənin məqsədi qarşıya qoyulan məsələlər, habelə tərəfdaş universitetlərlə və kolleclərlə görülmüş işlər barədə məlumat vermək üçün tərəfdaş universittelərlə onlayn təcrübə mübadiləsi aparılmış, Avropanın digər universitetlərində tədris edilən dərslər araşdırılmışdır. Xarici ölkələrə edilən ezamiyyətlərdə layihə ilə bağlı məruzələr edilmiş, respublika və beynəlxalq səviyyəli konfranslarda tezis və məqalələrlə iştirak edilmişdir. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *97,8* % işlər yerinə yetirilib |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | 1. Müasir tələblərə cavab vermədən yüksək səriştəliliyə malik peşəkar pedaqoji kadr yetişdirmək mümkün deyil.<br>2. Avropa təhsil sisteminin araşdırılması zamanı gəlinən nəticələr milli təhsil konsepsiyası və standartları ilə uyğunlaşdırlma zərurətini ortaya çıxarır.<br>3. Beynəlxalq təcrübənin öyrənilməsi yeni modul proqramlarının hazırlanmasının vacibliyini göstərir.<br>4. Yeni məzmunlu təhsil modeli – modulların tətbiqi, monitorinq, qiymətləndirmə və s. təcrübədə qarşıya çıxan problemlərin aradan qaldırılması üçün zəruri kompetensiyalara yiyələnməyi tələb edir.<br>5. Beynəlxalq təcrübə pedaqoqun işlədiyi kollektivə psixoloji adaptasiyasına, yaradıcılıq meyillərinin reallaşdırılmasına geniş imkanlar yaradır. |
| 4 | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | APF (Adaptive Project Framework)<br>XP (Ekstremal Proqramlaşdırma)<br>Eksperimental sorğu<br>Təqdimat |
| 5 | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | 1.Hüseynova Mahirə. Toponimlər xalqın tarixi ünvanıdır.<br>Filologiya və Pedaqogika: Elmi Araşdırmalar, 2024, C 1, №2, s.16-25<br>https://www.philologyandpedagogy.com/_files/ugd/d06210_4359791072e14b4b94132ddebe22165d.pdf |

| | |
|---|---|
| | 2. Həsənova Könül. Nəsr mətnlərində qənaətin fonomorfoloji səviyyədə təzahürü.<br>Filologiya və Pedaqogika: Elmi Araşdırmalar, 2024, C 1, №2, s.26-34.<br>https://www.philologyandpedagogy.com/_files/ugd/d06210_4359791072e14b4b94132ddebe22165d.pdf<br>3. Səmədova Könül. Azərbaycan dilinin şimal qrupu interregional dil xüsusiyyətlərində ümumi morfoloji ünsürlər. İQRO journal. Özbəkistan. İyun 2024 ISSN : 2181-4341, s.117-121<br>https://worldlyjournals.com/index.php/IFX/article/view/4171<br>4. Hacıyeva Ülviyyə. Dil təliminin yenilənmə mərhələsi haqqında.<br>Filologiya və Pedaqogika: Elmi Araşdırmalar, 2024, C 1, №2, s. 191-196<br>https://www.philologyandpedagogy.com/_files/ugd/d06210_4359791072e14b4b94132ddebe22165d.pdf<br>5. Qasımova Mirvari. Dil tədrisində artırma, əlavə edilmə modelinin tətbiqi əhəmiyyəti.<br>Filologiya və Pedaqogika: Elmi Araşdırmalar, 2024, C 1, №2, s.225-230<br>https://www.philologyandpedagogy.com/_files/ugd/d06210_4359791072e14b4b94132ddebe22165d.pdf |
| 6 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 7 | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 10 | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)* |
| 11 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | Layihə üzrə həyata keçirilən tədbirlər üçün video-proyektor, mikrafonlar, sorğu vərəqlərinin hazırlanması üçün vatman kağızlar, vinil və digər yazı ləvazimatları (rəngli flomasterlər, kağız və s.) |
| 12 | Yerli həmkarlarla əlaqələr |
| | Layihə mövzusu ilə əlaqədar olaraq, Bakı Dövlət Universitetinin nəznində İqtisadiyyat və Humanitar Kolleci, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba və Ağcabədi filialları ilə qarşılıqlı əlaqələr |

| | |
|---|---|
| | qurulmuşdur. Layihə əməkdaşlarının iştirakı ilə qeyd olunan universitet filialları və kollecin pedaqoji fakültə tələbələri və professor-müəllim heyəti ilə görüşlər keçirilmişdir. Ağcabədi filialı və ADPU Bakı Dövlət Universitetinin nəznində İqtisadiyyat və Humanitar Kollecində beynəlxalq təcrübəyə əsaslanan təhsillə bağlı layihə əməkdaşları tərəfindən mühazirələr oxunmuş, dəyirmi masalar keçirilmiş, tələbələrin bu mövzu ilə bağlı biliklərinin səviyyəsini mükəmməlləşdirmək üçün sorğular aparılmışdır. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | Layihə mövzusu ilə ilə bağlı Kazan Federal Universitetinin filologiya bölməsinin kafedra müdiri Alfiya Yusupovna, Beynəlxalq əlaqələr üzrə mərkəzin rəhbəri Elzara Qafiyatova, Rusiya Elmlər Akademiyasının Tipologiya şöbəsinin müdiri və Areal Dilçilik İnstitutunun direktoru Andrey Kibrik, Kazan Federal Universitetinin Filologiya və Mədəniyyətlərarası Ünsiyyət İnstitutunun direktoru prof. Radif Zameltdinov, Moskva Dövlət Universitetinin əməkdaşı t.e.d Nataliya Lukaşeviç ilə əməkdaşlıq yaradılmış, elmi əlaqələr qurulmuş və inkişaf etdirilməkdədir. |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | XX əsrin 90-cı illərin əvvəllərindən Azərbaycan ali təhsil sahəsində yeni inkişaf prioritetləri müəyyənləşdirilmiş və Avropa təhsilinə inteqrasiya təhsilin məzmununda köklü dəyişikliklərin aparılması zərurətini yaratmışdır. Ali təhsilin, o cümlədən pedaqoji kadr hazırlığının beynəlxalq təcrübəyə əsaslanması Avropa təhsil məkanında gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşməyə başladı. Dövlətin təhsil siyasətinin mühüm istiqamətlərindın olan pedaqoji kadr hazırlığı ilə bağlı layihə çərçivəsində müəyyən işlər həyata keçirimişdir. 2023-2024-cü tədris ilində ADPU Fiologiya fakültəsinə dil-ədəbiyyat müəllimliyi ixisası üzrə əcnəbi dil müəlimliyinə qəbul həyata keçirilmişdir. Hazırda bu il o ixtisas üzrə II kursda Rus dili və ədəbiyyat müəllimi hazırlığı üzrə 15 nəfər, Türk dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə 24 nəfər, İngilis dili və ədəbiyyatı müəllimliyi üzrə 50 nəfər, rusdilli məktəblərdə İngilis dili müəllimliyi üzrə 25 nəfər tələbə pedaqoji kadr hazırlığında təhsil alır. Bu il, 2014-2025-ci tədris ili üçün isə o ixtisas üzrə qəbul davam etdirilir. |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)* |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | Tələbə mübadiləsi ilə əlaqədar olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Xarici Dillər Mərkəzinin iki müəllimi Samirə Babayeva,Yasəmən Babayeva, Mirvari Qasımova və Dil və ədəbiyyat müəllimliyi (rus dili üzrə) ixtisas tələbələri 8-22 iyul 2024-cü il tarixlərində Rusiya Federasiyasının Kazan şəhərində keçirilən beynəlxalq layihədə iştirak ediblər. |

| | |
|---|---|
| | Tələbələr təmsil etdikləri ölkə və universitet haqqında təqdimatlarla çıxış etmiş, qrup şəklində layihələr hazırlayaraq təqdim etmişlər. Həmçinin səfər zamanı tələbələr və qup rəhbərləri maraqlı və maarifləndirici ekskursiya, master-klas, rus və tatar mədəniyyəti və tarixini əks etdirən interaktiv dərlərdə iştirak etmişlər.<br>Davamlı olaraq elmi konfrans və jurnalarda layihə mövzusu ilə bağlı məqalələr çap edilmişdir. Layihə çərçivəsində ADPU-nun Filologiya fakültəsində "Açıq qapı" günü keçirilib. S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın direktor müavinləri Şəhla Rəhmanova, Aytən Hacıyeva, müəllim və şagirdləri Filologiya fakültəsini ziyarət etmişlər.<br>Filologiya fakültəsinin dekanı, qrant layihənin üzvlərindən dos. Könül Həsənova çıxış edərək tədris olunan ixtisaslar, ədəbi dərnəklər, mətbu orqanlar, tələbələrin və müəllimlərin beynəlxalq layihələrdə iştirakı barədə qonaqlara məlumat vermişdir. Layihənin mövzusuna uyğun olaraq Pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeniməzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi barədə geniş məruzə etmişdir.<br>Direktor müavinləri Şəhla Rəhmanova, Aytən Hacıyeva və müəllimlər çıxış edərək Filologiya fakültəsində layihə mövzusu ilə bağlı keçirilən təlimlərdə iştirak etdiklərindən məmnunluq duyduqlarını bildirmiş,son illər tətbiq edilən yeni metodların ,müsbət dəyişikliklərin tələbələrin nizam-intizamında da özünü göstərdiyini vurğulamış, qonaqpərvərliyə görə rəhbərliyə öz təşəkkürünü bildirmişlər. Daha sonra müəllim və şagirdlər fakültə ilə tanış olmuşlar. |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)* |

**Layihə rəhbərinin imzası ___________________ Hüseynova Mahirə Nağı qızı**

**Tarix ____________________**

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.